**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN MİNGƏÇEVİR VƏ ƏTRAF BÖLGƏLƏRİNİN MADDİ MƏDƏNİYYƏTİ
**(etnoqrafik tədqiqat)**

İxtisas: 5502.01 - Etnoqrafiya və etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Aygün Raqif qızı Qədirova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Tarix elmləri doktoru, professor<br>**Fəzayıl İmran oğlu Vəliyev** |
| **Rəsmi opponentlər:** | Tarix elmləri doktoru, professor<br>**Nərgiz Məlik qızı Quliyeva** |
| | Tarix üzrə fəlsəfə doktoru<br>**Şöhrət Mirzə oğlu İbadov** |
| | Tarix üzrə fəlsəfə dokroru<br>**Günay Çapay qızı Həsənova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | Tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | Tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri:<br>________________ | Tarix elmləri doktoru, dosent<br>**İlhamə Gülbala qızı Məmmədova** |

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI A.A. Bakıxanov adına Tarix İnstitutu

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Mingəçevir və ətraf bölgələri özünün maddi və mənəvi mədəniyyətinin zənginliyi, empirik biliklər, əməli vərdişlər və təcrübələr hesabına formalaşan ailə və təsərrüfat məişətinin məhəlli spesifikası ilə daim seçilmiş və üç bölgənin – Gəncəbasar, Qarabağ və Şəki-Zaqatala bölgəsinin qovuşuğunda yerləşməklə orijinal bir maddi mədəniyyət irsinə sahiblik etmişdir. Burada illərlə formalaşan maddi mədəniyyət irsinə sosial-siyasi, təbii-coğrafi, etno-mədəni, texniki və iqtisadi amillərin fəal təsiri olmuşdur. Mikrobölgə əhalisinin yaratmış olduğu maddi sərvətləri toplayıb etnoqrafik tədqiqata cəlb etməklə tarixi inkişafı hərtərəfli bərpa etmək müasir reallıqdan doğan zərurət olub, mövzunu aktual etmişdir.

"*Maddi mədəniyyətin yaradıcısı olan insan öz yaşayışını təmin etmək üçün çox zaman maddi istehsalın özündən asılı olur*"[1]**.**Təkcə insan zəhmətinin göstəricisi kimi deyil, həm də insan zəkasının məhsulu kimi formalaşan maddi mədəniyyət ona olan tələbatdan asılı olaraq insan həyatının təminatı üçün istehsalı zəruriləşdirir. Maddi istehsalla sıx bağlı olan maddi mədəniyyət sahələrinin öyrənilməsi də bu mənada həmişə aktuallıq kəsb etmişdir.

Məlumdur ki, Mingəçevir SES-in tikintisi ilə əlaqədar olaraq burada XX əsrin 40-50-ci illərində güclü arxeoloji tədqiqat işləri aparılmış, əldə olunan çoxsaylı maddi mədəniyyət nümunələri bu ərazinin məskunlaşma tarixinin qədim olduğunu təsdiqləmişdir. Sonralar da Yevlax, Xaldan, Goranboy ərazilərində aparılan arxeoloji tədqiqat işləri burada mövcud olan zəngin çalarlı maddi mədəniyyət irsini bir daha sübuta yetirmişdir. Mikrobölgədə maddi mədəniyyət irsi tarixən zəngin olmuş və onu tarixi-etnoqrafik tədqiqata cəlb etmək Azərbaycan etnoqrafiyasının maddi mədəniyyət probleminin öyrənilməsinə bir əlavə olardı. Mövzuya tədqiqat işi kimi müraciət etməyimizin bir səbəbi də bununla izah olunur.

Azərbaycan xalqının maddi mədəniyyəti bir çox bölgələr üzrə işlənsə də, hətta bu mövzuya həsr olunmuş ümumiləşdirilmiş əsərlər

---

[1]Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat) / F.İ.Vəliyev. – Bakı: Şərq-Qərb, - 2010. – s. 7.

işıq üzü görsə də, Azərbaycanın tarixi-etnoqrafik bölgələri içərisində özünəməxsus mikrobölgə kimi ilk dəfə tərəfimizdən müəyyənləşdirilən Mingəçevir və ətraf bölgələrin maddi mədəniyyəti bu vaxtadək öyrənilməmiş qalmışdır. Azərbaycanın, demək olar ki, heç bir tarixi-etnoqrafik bölgələrinə aid edilməyən[2] Mingəçevir və ətraf bölgələr maddi mədəniyyət cəhətincə zəngindir. Məsələ burasındadır ki, nə ilk dəfə XX əsrin ortalarında mənşəcə rus olan A.Q.Trofimova, nə də etnoqraf-alimlər E.Ə.Kərimov və A.A.Abbasov XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycanın tarixi-etnoqrafik bölgələrinin təsnifatını apararkən tədqiq olunan ərazi haqqında konkret bir fikir söyləməmişlər. Belə ki, E.Ə.Kərimov və A.A.Abbasov Yevlax rayonunu Qarabağ bölgəsinə, Goranboy rayonunu isə Qərb bölgəsinin Şimal-qərb yarımbölgəsinə aid etmiş, Mingəçevir və Xaldan rayonunu isə heç bir tarixi-etnoqrafik bölgəyə daxil etməmişlər[3;4]. Tədqiq etdiyimiz mikrobölgənin tarixi-etnoqrafik rayonlaşdırma məsələsində təsnifatdan kənarda qalması da mövzuya müraciət etməyimizə rəvac vermişdir.

Etnoqrafiya elmində maddi mədəniyyət probleminin öyrənilməsində arxeoloji qazıntılar zamanı əldə edilən materiallar, muzeylərimizdə saxlanılan eksponatlar, arxiv sənədləri, yazılı qaynaqlar və müasir dövrümüzə qədər gəlib çatmış məişət əşyaları mühüm rol oynayır. Mikrobölgənin etnoqrafik baxımdan mükəmməl tədqiqinə əsasən XIX əsrin sonlarından başlanmışdır. Lakin qeyd olunan dövrə qədər bölgənin maddi-mədəniyyət tarixinin öyrənilməsində müxtəlif səyyahların və müəlliflərin əsərlərində olan qeydlər də olduqca maraqlıdır.

“Səyyahlar Azərbaycan haqqında” kitabinin I cildində bölgə haqqındakı etnoqrafik məlumatlar dəyərlidir. Xüsusilə XV əsr ingilis səyyahı A. Cenkinsonun Ərəş şəhəri haqqında qeydlərinə istinadən

---

[2] Трофимова, А.Г. Квопросы об этнографических зонах Азербайджанской ССР // - Москва: Краткие сообщения Института Этнографии АН СССР, - 1959. вып. XXXII, - с. 37-44

[3] Kərimov, E.Ə. Azərbaycanın tarixi-etnoqrafik bölgələri. // - Bakı: “Tarix və onun problemləri”, - 1998, № 3, -1999, № 2. – s. 166-175

[4] Abbasov, A. Tarixi-etnoqrafik bölgələr / A.Abbasov, E.Kərimov. Bakı: - Azərbaycan Milli Ensiklopediyası, “Azərbaycan” Xüsusi cildi, - 2007. - s. 107-112.

tarixçi V.İsayev Şirvanın əsas və ən varlı ticarət şəhəri Ərəş olduğunu qeyd edir. Onun ətrafında hər şeydən çox xam ipək istehsal olunur, bura ticarət üçün türklər, suriyalılar və başqa əcnəbilər gəlirlər. A.Cenkinson XVI əsrdə də Ərəş şəhərinin Səfəvilər dövlətinin Təbriz, Ərdəbil, Şamaxı, Gəncə kimi qüdrətli və mühüm ticarət mərkəzlərindən biri olduğunu qeyd edir[5]. Eyni fikrə çoxcildlik "Azərbaycan tarixi"ndə də rast gəlirik[6].

XV əsrdən başlayaraq, Rusiyanın müxtəlif peşə sahibləri - tacirlər, diplomatlar, səyyahlar, alimlər və hərbi qulluqçular Azərbaycanda olmuş və ölkənin siyasi, iqtisadi vəziyyətinə dair materiallarla yanaşı, yerlı əhali haqqında da müxtəlif etnoqrafik materiallar toplamışdılar. Sonrakı dövrlərdən başlayaraq rus elmində Azərbaycan etnoqrafiyasının öyrənilməsi daha geniş vüsət almışdır.

XVII əsr türk coğrafiyaşünas-səyyahı Evliya Çələbi "Səyahətnamə" əsərində bu mikrobölgənin baş şəhəri olan Ərəş haqqında məlumatlar vermişdir. Onun yazdığına görə *"Ərəş, Əcəm diyarında, Şirvan əyaləti ərazisinə daxildir. Bu gözəl şəhər Rəna şah dağı ətəyindəki Bursa şəhərinə oxşar havası təmiz, bağ-bağçalı, gülüstanlı bir yerdədir. Burada təqribən 10000 örtülü torpaq ev, 40-a qədər cümə məscidi, bir o qədər məhəllə, mədrəsə, məktəb, 800 dükan, karvansara, 16 hamam vardır"*[7].

XVIII əsrdə Mingəçevir və ətraf bölgələrin yaşayış məskənlərinin inzibatı bölgüsü haqqında dolğun məlumat verən mənbələrdən biri də 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"dir. Burada ərazinin inzibati bölgüsü və onlara tabe olan yaşayış məskənlərinə görə vergi mükəlləfiyyətləri daşıyanların adı, atasının adı, ailə vəziyyəti və s. haqqında dolğun məlumat verilmişdir[8].

Haqqında bəhs olunan mikrobölgə arxeoloji cəhətdən daha çox öyrənilmişdir. Belə ki, Mingəçevir arxeoloji obyekt kimi XIX əsrin II

---

[5]İsayev V. Yevlax sənədlərdə və yaddaşlarda. / V.İsayev. – Bakı: Azərnəşr, -2001, - s.25; Путешественники об Азербайджане. т.1. под ред. Э.М.Шахмалиева. Баку: - Изд-во АН.Азерв. ССР, -1961. - с.111-112

[6]Azərbaycan tarixi. Yeddi cilddə. III cild. Bakı: - Elm, - 2007. - 546 s.

[7]Челеби Э. Книга путешествия: [в 10 томах] / Э.Челеби. – Москва: Наука, - 1983. – с. 157.

[8]Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. / Bakı: -Şuşa nəşriyyatı, - 2000. - 576 s.

yarısından arxeologiya həvəskarlarının diqqətini cəlb etmişdir. Mingəçevirdə arxeoloji abidələrin mövcudluğu barədə ilk dəfə 1873-ci ilin dekabr ayında Peterburqda keçirilən II arxeoloji qurultayda Qafqaz arxeoloji komitəsinin sədri A.P.Berje tərəfindən məlumat verilmişdir. Onun tam dəqiq olmayan məlumatları və gəldiyi nəticələr həvəskar arxeoloq F.C.Bayerin Mingəçevir abidələri barədəki səthi məlumatlarına əsaslanırdı. O, bu izahatında Kürün sağ sahilində payalı tikintilərin və mətbəx qalıqlarının olduğunu söyləmişdir. E.A.Paxomov 1934-1939-cu ilə qədər hər il Mingəçevirdə qısa müddətli həfriyyat aparmış və nəticədə bir çox küp qəbirləri açmışdır. Onun tərəfindən Mingəçevir ərazisində iki yaşayış məskəni də aşkarlanmışdır. E.A.Paxomov yaşayış məskənləri ilə yanaşı, Yevlax və Xaldan rayonlarında olan küp qəbirlərini qismən öyrənmişdir[9]. Lakin, qeyd etmək lazımdır ki, aparılan bu işlər ərazinin arxeoloji cəhətdən əsaslı olaraq öyrənilməsini söyləməyə əsas vermir.

Mingəçevir SES-in tikintisi ilə əlaqədar olaraq burada XX əsrin 40-50-ci illərində güclü arxeoloji tədqiqat işləri aparılmış, tədqiqatların nəticələri nəşr olunmuş[10], əldə olunan çoxsaylı və çoxçeşidli maddi mədəniyyət nümunələri əsasında bu ərazinin qədim tarixinə aid yetərli fikirlər söylənmişdir.

Tədqiqatımızın ayrı-ayrı bölmələrinin yazılmasında XIX əsrin 80-ci illərində 7 cilddən ibarət "Zaqafqaziya ölkəsi dövlət kəndlilərinin iqtidadi məişətinin öyrənilməsinə dair materiallar məcmuəsi"nin elmi əhəmiyyətini xüsusi qeyd etməliyik. Məcmuənin

---

[9]Qazıyev S.M. Mingəçevirdə arxeoloji yadigarlar. / S.Qazıyev. – AMM., I c., Bakı: - Azərbaycan SSR Elmlər Akademiyası nəşri, -1949, -s.71-86; Qazıyev S.M. Mingəçevir Arxeoloji həfriyyatı. / S.Qazıyev. - Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşri, - 1960. - 182 s.

[10]Vahidov R. Mingəçevir III-VIII əsrlərdə (arxeoloji qazıntı materialları əsasında). / R.Vahidov. - Bakı: Azərb.SSR EA Nəşriyyatı, - 1961. -160 s.; Асланов Г. К изучению раннесредневековых памятников Мингечаура / Г.Асланов.- КСИИМК. вып. 60, М: - 1955.- с.63-72; Асланов Г.М., Вахидов Р.М., Ионе Г.И. Древний Мингечаур. / Г. Асланов, Р.Вахидов, Г.Ионе. - Баку: Изд-во АН. Азерб. ССР., - 1959. - 188 с.

VII cildində dərc olunan N.A.Abelovun[11]və A.N.Arasxaniyansın[12] tədqiqat səviyyəli əsərləri mövzumuz üçün yetərli faktik materiallar vermişdir.

"Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusunun (QƏXTMT-SMOMPK) 6-cı buraxılışında Həsənbəy Bağırovun "Yelizavetpol quberniyası, Goranboy-Əhmədli kəndi əhalisinin bəzi səciyyəvi xüsusiyyətləri" adlı məqaləsi bölgə əhalisinin maddi mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir[13]**.** Həmin kənddə müəllim işləmiş müəllif, yazdığı məqalədə kənd əhalisinin sosial və dini mənsubiyyəti, ailə adət-ənənələri, xüsusilə qızqaçırma, əhalinin məşğuliyyəti ilə yanaşı, maddi mədəniyyətin yeməklər, xalq geyimləri kimi sahələri və maddi mədəniyyətlə bağlı ailə-məişət qayda-qanunları haqqında da yetərli məlumatlar vermişdir.

1948 və 1949-cu illərin yayında Azərb.SSR EA Azərbaycan Tarixi Muzeyinin tapşırığı ilə Z.A.Kilçevskaya Xaldan və Samux rayonlarının Öcək, Mansurlu, Çomaxçı və Yelləngüç kəndlərində etnoqrafik səfərdə olmuşdur. Etnoqrafik səfərin nəticəsi olaraq yazdığı məqaləsində müəllif, Öcək kəndi haqqında ətraflı məlumat verir və kənddə olan nəsillərdən, kəndin plan quruluşundan, kəndli həyətlərindən, ev tiplərindən, əhalinin təsərrüfat məşğuliyyətindən bəhs edir. Müəllif, kənddə ənənəvi qadın geyimlərinin tam şəkildə qorunub saxlandığını qeyd edir[14]. Məqalədə öz əksini tapmış etnoqrafik materiallar bölgə əhalisinin qadın geyimlərinin tədqiqi üçün olduqca qiymətlidir**.**

---

[11]Абелов Н.А. Экономический бытъ государственных крестьян Елисаветпольского уезда Елисаветпольской губернии / Н.Абелов.- Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края. (bundan sonra: МИЭБГКЗК). т. VII.– Тифлис: Типография А.А.Михельсона, - 1887. - с. 1-140

[12]Арасханианц А.Н. Экономический быт государственных крестьян Арешского уезда Елисаветпольской губернии, / Арасханианц А. – МИЭБГКЗК, т. VII. – Тифлис: Типография А.А.Михельсона, Головинский просп. № 12-й, - 1887. - с. 141-216.

[13]Багиров Г.Б. Некоторые характерные черты жителей селения Геранбой-Ахмедлы Елисаветпольского уезда Елисаветпольской губернии / Г. Багиров. - СМОМПК, вып. 6, отд. II.- Тифлис: 1888.- с. 177-185

[14]Кильчевская З.А. Азербайджанский женский костюм XIX века из селения Оджек Халданского района / З.Кильчевская. - Материальная культура Азербайджана.вып. 2. – Баку: 1951. - с.184-200

Etnoqraf M.İ.Atakişiyevanın "Mingəçevir şəhərinin ətraf kəndlərində ev avadanlığı"[15] adlı məqaləsi bölgədə mövcud olan məişət avadanlıqlarını, xüsusilə də mis qabları tədqiq etmək baxımından olduqca dəyərlidir. Mikrobölgənin maddi mədəniyyət tarixinin tədqiqi üçün az əhəmiyyət kəsb etməyən digər bir məqalə arxeoloq Q.İ.İonenin "Mingəçevirdə gildən hazırlanmış ayaqqabı şəkilli qablar" adlı məqaləsidir[16]. Məqalədən məlum olur ki, "*Azərbaycanda başmaq, məst və uzunboğaz çəkmə tipli ayaq geyimlərindən istifadə olunmasının qədim tarixi vardır. Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan və er.əv. XI-VIII əsrlərə aid edilən gil ayaqqabı-qablar XIX əsrdə xalqın istifadəsində olan eyniadlı ayaqqabılarla tipoloji oxşarlıq təşkil edir"*[17].

Tarix, iqtisadiyyat və etnoqrafiya elmi baxımdan əhəmiyyətli olan M.H.Vəlilinin (Baharlı) 1993-cü ildə Azərbaycan dilində nəşr olunmuş kitabında[18]bəhs etdiyimiz bölgə haqqında da məlumatlar verilmişdir. Kitabda Yevlax dəmiryol stansiyasının Azərbaycanın daxili ticarətində mühüm rol oynadığı göstərilmişdir.

Ə.S.Məmmədov 1969-ci ildə yazdığı "Mingəçevir" adlı kitabında bölgənin həm tarixi və coğrafiyası, həm də etnoqrafiyası barədə geniş məlumat vermişdir[19]. Son dövrlərdə də Mingəçevir və ətraf bölgələrin maddi-mədəniyyətinin öyrənilməsi davam etdirilməkdədir. V.İ.İsayev "Yevlax sənədlərdə və yaddaşlarda" adlı yuxarıda haqqında bəhs etdiyimiz kitabında Yevlaxda yerləşən

---

[15]Atakişiyeva M.İ. Mingəçevir şəhərinin ətraf kəndlərində ev avadanlığı. / M.Atakişiyeva M. - Azərbaycanın maddi mədəniyyəti. II cild, - Bakı: -Azərnəşr,- 1951.- səh. 166-183; Атакишиева М.И. Народная утварь в селениях и окрестностях г. Мингечаура и Самухского района Азерб.ССР / М. Атакишиева. - Вопросы этнографии Кавказа. - М., Наука., -1952 с. 201-215

[16]Ионе Г.И. Глиняные сосуды-сопожки из Мингечаура / Г.Ионе. - МКА., т. III,- Баку: - Изд-во АН. Азерб. ССР, 1953.- с. 36-60.

[17]Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (geyimlər, bəzəklər) / F.Vəliyev. - Bakı: Elm,- 2006. - s. 82

[18]Vəlili (Baharlı) M.H. Azərbaycan coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat. Akademik Ziya Bünyadovun redaktəsi ilə. / M.Vəlili (Baharlı).- Bakı: -Azərbaycan Dövlət nəşriyyatı. 1993.- 208 s.

[19]Məmmədov Ə.S. Mingəçevir. / Ə.Məmmədov. – Bakı:- Azərbaycan Dövlət nəşriyyatı, 1969. - 202 s.

kurqanlar, küp qəbirləri, bu ərazidə yerləşən ziyarətgahlar, Ərəş şəhəri, bölgənin 50-yə yaxın kənd və şəhər yaşayış yerlərinin toponomiyası haqqında, Yevlax bəyləri haqqında və Yevlaxın yarandığı gündən XX əsrin sonuna qədərki siyasi, iqtisadi və mədəni inkişafı haqqında arxiv sənədlərinə, tarixi qaynaqlara və yaşlı nəslin yaddaşına əsaslanaraq geniş məlumat vermişdir. Əsərdə xalq adət-ənənələri, qonaqpərvərlık, ailə-məişət münasibətləri, el şənlikləri ilə yanaşı, əhalinin xalq yaşayış məskələri və evləri, ənənəvi xalq geyimləri, yeməkləri və içkiləri, xalq nəqliyyatı vasitələri kimi maddi mədəniyyət elementləri haqqında da məlumatlar almaq mümkündür[20].

Mingəçevirin yaranması ilə əlaqədar P.Ə.Qurbanovun yazdığı "Mingəçevir: hidroqovşaq və şəhər necə yarandı" kitabı da faktik materiallar baxımından xeyli zəngindir. Kitabda Mingəçevir toponimi haqqında və SES-in tikintisi haqqında geniş məlumat verilmişdir[21].

Nəsib Bayram oğlunun "Mingeçevirdə qalan ömür", Fidayil Abdullayevin(Samuxlu) "Nur şəhəri", "Şıxməmmədovun Mingeçevir kəndinin Tarixi" kitabları Mingeçevirin Maddi mədəniyyəti haqqında pərakənda məlumatlar versədə, hərhalda mövzünun tədqiqi üçün dəyərli sayıla bilər[22].

Beləliklə, tədqiq etdiyimiz bölgə əhalisinin maddi mədəniyyətinin etnoqrafik baxımdan öyrənilməsi ilə bağlı apardığımız araşdırmalar göstərir ki, bu sahədə az-çox dərəcədə işlər görülsə də, bunlar heç də yetərli deyildir. Buna görə də bölgə əhalisinin maddi mədəniyyət irsini geniş tarixi-etnoqrafik tədqiqata cəlb etməklə, elmi-etnoqrafik dövrəyə gətirməyə cəhd etmişik.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın əsas obyekti mikrobölgə (Mingəçevir, Naftalan-Xaldan, Yevlax və Goranboy) əhalisinin yaratmış olduğu maddi mədəniyyət irsidir. Onun

[20]İsayev V. Yevlax sənədlərdə və yaddaşlarda. / V.İsayev. – Bakı: Azərnəşr, -2001, - 456 s

[21] Qurbanov P.Ə. Mingəçevir: hidroqovşaq və şəhər necə yarandı. / P. Qurbanov. - Bakı: Səda, 1995.- 220 s.

[22] Qədirova A. Mingəçevir və ətraf bölgələrin maddi mədəniyyətinin etnoqrafik cəhətdən öyrənilməsi tarixindən. // - Bakı: Sivilizasiya. Elmi-nəzəri jurnal (Bakı Avrasiya Universiteti, - 2014. № 3, - s. 125-131.

predmetini isə maddi mədəniyyət nümunələrinin (xalq yaşayış məskənləri və evlər, geyim və bəzəklər, yemək və içkilər, xalq nəqliyyatı vasitələri) öyrənilməsi təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri əhalisinin maddi mədəniyyət irsini tədqiqata cəlb etməkdir. Bunun üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Mikrobölgədə maddi mədəmiyyət elementlərinin formalaşmasına təsir göstərən sosial-iqtisadi, etno-mədəni və təbii-coğrafi amillərin rolunu aşkara çıxarmaq;
- Yaşayış məskənlərinin tip və formaları, kəndli həyətləri, yaşayış evi tipləri və inşaat texnikasıyla bağlı artefaktlarının tarixi təkamülünü və etnoqrafik xüsusiyyətlərini müəyyənləşdirmək;
- Xalq geyimləri və bəzəklər sahəsində bölgə əhalisinin qazanmış olduğu empirik bilik, vərdiş və sənət yaradıcılığını üzə çıxarmaq, digər etnoqrafik bölgələrlə oxşar və fərqli cəhətlərini göstərmək;
- Bölgə əhalisinin qida mədəniyyətinin etnoqrafik çalarlarını müəyyənləşdirmək, içkilərin hazırlama texnologiyasını müəyyən etmək;
- Bölgədə mövcud olan xalq nəqliyyatı vasitələrinin tam elmi-etnoqrafik təsnifatını və şərhini vermək, yollar və onların əhalinin məişətində rolunu göstərmək;
- Mikrobölgə əhalisinin maddi-mədəni irsinin ümumazərbaycan maddi-mədəni irsinin tərkib hissəsi olduğunu bir daha təsdiq etmək.

**Tədqiqatın metodları.** Mövzu araşdırılarkən tarixi müqayisə metodu, kompleks yanaşma metodu və struktur-sistem metodu və s. etnoqrafiya elmində qəbul olunmuş metodlara geniş yer verilmişdir. Tədqiqat işi yazılan zaman Gəncəbasar, Qarabağ və Şəki-Zaqatala bölgələrinin maddi mədəniyyəti ilə müqayisələr aparılmış, ortaya çıxan oxşar və fərqli cəhətlər müəyyən edilmişdir. Faktların analizi zamanı mövzu ilə bağlı Azərbaycan və rus dillərində olan kitablardan və mənbələrdən istifadə edilmiş, müxtəlif müəlliflərin fikirlərinə münasibət bildirilmiş və müəllifin öz fikirləri verilmişdir. Mikrobölgənin maddi mədəniyyəti tədqiq edilərkən tarixi inkişaf prinsipi də əldə əsas tutulmuş, Azərbaycanın tarixi-mədəni, sosial-

iqtisadi, etnik-siyasi inkişafı ilə həmahəng formalaşan maddi mədəniyyət sahələri tarixilik baxımdan araşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Mikrobölgənin maddi mədəniyyəti həm sosial-siyasi, təbii-coğrafi, mədəni-texniki və iqtisadi amillərin fəal təsiri ilə daxili imkanları hesabına, həm əhalinin təsərrüfat məşğuliyyətinin istiqamətindən, empirik bilik və təcrübələrindən yararlanmaqla, həm də qonşu bölgələrlə etno-mədəni təmas, qarşılıqlı zənginləşmə və müştərək-ortaq dəyərlər yaratmaqla formalaşmışdır.

Buranın maddi mədəniyyətinin yaranmasında bir sıra məhəlli xüsusiyyətlər özünü büruzə versə də, bütövlükdə tipoloji və terminoloji cəhətdən Ümumazərbaycan maddi mədəniyyət kompleksinin tərkib hissəsi kimi səciyyələnmişdir.

Mikrobölgənin maddi mədəniyyəti sahəsində yaranan ümumiliyin əsasında türk dünyası və Qafqaz xalqları arasında tarixən yaranmış mədəni-iqtisadi əlaqələr və qarşılıqlı təmas durmuşdur.

Əraziyə zamanla Borçalı, Qazax, Gəncəbasar, Qarabağ və Şəkidən eyni etnik mənşəli əhali qrupları köçmüşdür ki, onlara məxsus mədəni elementlər burada maddi mədəniyyətin yerli çalarına bir rəngarənglik qataraq onun spesifik məhəlli lokalizasiyasını şərtləndirmişdir.

Bölgə əhalisinin maddi mədəniyyətində sosial təbəqələşmə özünü aydın surətdə büruzə vermişdir.

**Tədqiqatın elmi yeniliyi.**

Üç böyük tarixi-etnoqrafik bölgənin (Gəncəbasar, Qarabağ və Şəki-Zaqatala) qovuşuğunda yerləşməklə, mikrobölgə kimi formalaşan və tarixi-etnoqrafik rayonlaşdırma məsələsində təsnifatdan kənarda qalan Mingəçevir və ətraf bölgəsi ilk dəfə olaraq tərəfimizdən müəyyənləşdirilmişdir.

Mikrobölgə əhalisinin maddi mədəniyyəti əsaslı şəkildə araşdırılaraq, mənbələr əsasında irəli sürülmüş faktlarla bir çox məsələlərə aydınlıq gətirilməklə, Azərbaycan etnoqrafiyasında ilk dəfə olaraq kompleks şəkildə tədqiq edilmişdir.

Dissertasiya işinin tədqiqi zamanı Azərbaycan və rus dillərində olan material və mənbələr öyrənilmiş, müqayisəli şəkildə təhlil edilmişdir;

Tədqiqat işində bölgənin məhəlli-lokal spesifikası etnoqrafik çöl materiallarını cəlb etməklə araşdırılmış, etnoqrafik dövriyəyə yeni materiallar gətirilmişdir.

İlk dəfə olaraq mikrobölgənin yaşayış məskənləri və evləri, xalq geyimləri və bəzəkləri, yemək və içkiləri, xalq nəqliyyatı vasitələrinin təsnifatı, təsviri və tədqiqatı aparılmış, Azərbaycanın maddi mədəniyyəti irsində sözügedən bölgənin yeri və rolu müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində təqdim edilmiş metodoloji yanaşmalar, habelə aparılan müqayisəli təhlillərdən və alınan elmi nəticələrdən Azərbaycanın tarixi etnoqrafiyasını öyrənmək, maddi mədəniyyətdə baş verən dinamik inkişafı izləmək üçün istifadə oluna bilər. Dissertasiya işinin materiallarından Azərbaycanın və digər türk xalqlarının maddi mədəniyyət tarixinin tədqiqində, ali təhsil ocaqlarında ixtisas kurslarının tədrisində istifadə oluna bilər. İşin nəticələri həmçinin qloballaşan dünyada ənənəvi maddi-mədəni varisliyin qorunub saxlanmasında, milli-mənəvi və maddi dəyərlərin təbliğində də köməyə gələ bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmununu əhatə edən müddəaları müəllif tərəfindən Ukrayna və Rusiya Fedarasiyasında çap olunmuş məqalələrində, beynəlxalq və respublika səviyyəli elmi konfransların materiallarında, AMEA-da keçirilən konfrans və elmi sessiyalarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun “Tarixi etnoqrafiya” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Giriş, 4 fəsil, 21 paraqraf, nəticə, qəbul olunmuş ixtisarlar daxil olmaqla dissertasiyanın ümumi həcmi 243535 (ədəbiyyat siyahısı istisna olunmaqla) işarədən ibarətdir. Giriş: işarə sayı – 15967, I fəsil: işarə sayı - 55107, II fəsil: işarə sayı 63395, III fəsil: işarə sayı - 62665, IV fəsil: işarə sayı - 44200, nəticə: işarə sayı -3330.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, dissertasiya işinin məqsəd və vəzifələri, tədqiqat obyekti, problemin öyrənilmə səviyyəsi, tədqiqat metodları, işin aprobasiyası, praktiki əhəmiyyəti şərh edilmiş və onun strukturu verilmişdir.

Dissertasiyanın I fəsli *"Yaşayış məskənləri və evlər"* adlanır və 5 paraqrafdan ibarətdir.

I Fəsilin *"Yaşayış məskənlərinin tip və formaları"*paraqrafında XIX-XX əsrin əvvəllərində bir-birindən fərqli məskən növlərinin yaranmasında təbii-coğrafi şərait, mövcud ictimai-iqtisadi və siyasi quruluş, məhsuldar qüvvələrin inkişafı, sosial-iqtisadi inkişafın xüsusiyyətləri, ailə həyatının normaları və təsərrüfat fəaliyyətinin həlledici rolu, məişət tərzinə görə məskənlərin daimi və müvəqqəti olmaqla iki qrupu qeyd olunur. Daimi yaşayış məskənlərinin əsas vahidi kəndlər olmuş, qəsəbə və şəhər yaşayış məskənləri sonralar meydana gəlmişdir. Bu dövrdə bölgədə poligen, yəni qan qohumluğu cəhətdən eyni olmayan kəndlər üstünlük təşkil etmişdir. Belə ki, Yevlax rayonunun Ərəş kəndində Zaman yüzbaşının adı ilə Zamanlar, eləcə də Molla Musalar, Kərimoğullular, Həmidlilər, Adıgözəllər, Əbdürrəhmanlılar, Hasanlar, Nazarlılar, Mürşüdlülər tayfaları kəndin əsas tayfaları olmuşdur. Bölgənin kəndləri arasında monogen xarakterli kəndlər demək olar ki, mövcud olmamışdır.

Mikrobölgədə məskunlaşmanın əkinçilik və əkinçilik-maldarlıq təsərrüfat-mədəni tiplərinə uyğun olaraq çaykənarı-yolkənarı, düzənlik-aran məskunlaşma tipləri müəyyənləşdirilmiş, məskunlaşma tiplərinin xarakterik xüsusiyyətləri və yayılma arealı aşkar edilmidir. Düzənlik-aran məskunlaşma tipi həm də ərazinin relyef quruluşuna görə qruplaşmasının ən böyük vahidini təşkil etmiş, burada sırf azərbaycanlılar məskunlaşmışdır.

Tədqiqatla mikrobölgənin dağlıq, dağətəyi (yarımyamac) tipli kəndlərinin Goranboy rayonunun payına düşdüyü müəyyən olunmuş, Murovdağ silsiləsində yerləşən bu kəndlərin adları göstərilmişdir.

Bəhs olunan dövrdə sosial-iqtisadi inkişafın gedişi ilə əlaqədar bölgə kəndlərinin plan quruluşu tədricən dəyişdiyindən, kənd yaşayış məskənləri tərəfimizdən şərti şəkildə nizamsız (dağınıq), koma-koma, və yığcam kənd forması kimi təsnif olunmuşdur. Paraqrafda onların etnoqrafik xüsusiyyətləri, yayılma arealı, xüsusilə koma-koma kəndlərin formalaşmasında patronimik münasibətlərin (qan qohumluğu ilə birləşən icma üzvlərinin bir yerdə yaşamağa can atması meylinin), təbii-coğrafi şərait və yerin relyef quruluşunun, həmçinin iqtisadi amillərin (təsərrüfat fəaliyyəti, məişət tərzi və s.) mühüm rolu qeyd olunmuşdur. Tədqiqatla mikrobölgədə qəsəbə və şəhər tipli yaşayış məskənlərinin Mingəçevir, Yevlax, Naftalan kimi şəhərlər, Goranboy ərazisində 2 şəhər (Goranboy və Dəliməmmədli), 4 şəhər tipli qəsəbə (Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Qazanbulaq, Qızılhacılı), Yevlax ərazisində isə 4 qəsəbə (Aran, Düzdağ, İrəvanlı və Meyvəli) mövcudluğu aşkar olmuşdur. Mikrobölgə əhalisinin yaşayış məskənlərinin müəyyən bir qismini də oba, binə, şennik və qışlaq adlanan müvəqqəti yaşayış məskənləri təşkil etmişdir. Müvəqqəti yaşayış məskənlərinin salınmasında bölgənin köçmə-maldar əhalisi başlıca rol oynamışdır. Mikrobölgənin Borsunlu, Həmənli (Mingəçevir icması ilə birgə), Hacalı, Goranlı, Dəliməmmədli, Qazanbulaq, Yegərçi-qazaxlar, Qızılhacılı, Qırmızı qazaxlar, Qaraçay Səfikürdü, Kürəkçay Səfikürdü, Şadılı kəndlərinin yaylaqlara köçetmə ənənələri olmuşdur.[23]

I fəsilin 2-ci paraqrafı *"Həyətlər"* adlanır. Ərazidə kəndlərin əksəriyyəti düzənlik-aran məskunlaşma tipinə aid olduğuna görə, buradakı kəndli həyətləri geniş, düzbucaqlı formada, tikililəri sərbəst yerləşmiş, dağ və dağətəyi kəndlərdə isə ərazinin topoqrafiq

[23]Абелов Н.А. Экономический бытъ государственныхъ крестьянъ Елисаветпольского уезда Елисаветпольской губернии / Н.Абелов.- Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края. (bundan sonra: МИЭБГКЗК). т. VII.– Тифлис: Типография А.А.Михельсона, - 1887. - с. 68-69.

quruluşunun əlverişsizliyi həyətlərin darısqal, formasız olmasını şərtləndirmişdir.

Düzənlik kəndlərində həyətlər məişət xüsusiyyətlərinə görə iki bölməyə - inşaat-məişət və təsərrüfat bölməsinə ayrılırdı. İnşaat-məişət bölməsində adətən, yaşayış evi, yardımçı tikililər yerləşirdi. “Çöl”, “qapı”, “eşik”, “məhlə” adlanan bu sahə təsərrüfat bölməsindən ara qapısı, addamacla (çax-çax) ayrılırdı. Paraqrafda Şərq adətincə həyətin qapalılığını təmin etmək və ümumi görkəmini tamamlamaq üçün ətrafına çəkilən çəpərlər, həyətə giriş yolu haqqında da ətraflı məlumatlar verilir.

I fəslin *“Yaşayış evi tipləri və inşaat texnikası*” adlanan 3-cü paraqrafında ev inşaatında istifadə olunan tikinti materialları və əmək alətlərinin növləri araşdırılır, bölgədə mövcud olan ev tiplərinin ilk dəfə təsnifatı verilir. Xüsusi olaraq vurğulanır ki, evlər və onların müxtəlif tipləri məhsuldar qüvvələrin inkişaf səviyyəsi, təbii-coğrafi şərait, ictimai münasibətlər, ailə formaları, təsərrüfat məişəti və cəmiyyətin sosial quruluşu ilə üzvi surətdə bağlı olmuşdur. Bu amillərin fəal təsiri altında yaranan mikrobölgə evləri “qazma ev”, “möhrə ev” (“çim ev”), “torpaqlı ev”, “seyvanlı ev”, “qom-qamış ev”, “aradoldurma ev”, “kirəmitli ev” “aynabəndli ev” (kəlləbaşı), “şirvani ev” və s. kimi təsnif olunmuşdur. Ağac materialının qıtlığından bölgədə ağac evlər az olmuşdur. Bölgənin köçmə maldarlıqla məşğul olan əhalisi yaylaq şəraitində alaçıq, dəyə və ya coma kimi müvəqqəti yaşayış evlərində güzəran keçirmişdir. Paraqrafda mikrobölgənin yaşayış evi fondunu təşkil edən bu ev tiplərinin hər birinin inşaat texnikası, istifadə olunan tikinti materialı, tikintidə xalq təcrübəsi, evlərin plan quruluşu, eləcə də xalq inşaatçı-memarlarının sənət ənənələrinin etnoqrafik xüsusiyyətləri geniş tədqiqata cəlb olunur, əhalinin istifadə etdiyi ev tipləri haqqında aydın təsəvvürlər yaradılır. Əhalinin daimi ev tipləri planda düzbucaqlı (qazma, möhrə, qom-qamış ev, seyvanlı ev, şirvani, kirəmitli ev) kvadrat planlı (aradoldurma) kimi inşa olunurdu. Xalq arasında onlara təkotaqlı, cərgəvi və kəlləbaş (kəllayı, tənəbi) evlər

deyilirdi. Müvəqqəti yaşayış evləri isə dairəvi planda hasilə gətirilirdi.

I fəslin *"Ev tikintisi ilə bağlı xalq adətləri"* adlanan paraqrafında bütün Azərbaycan üçün səciyyəvi olan xalq adətləri - yaşayış evi tikintisi üçün rahat, əlverişli yerin seçilməsi, inşaat materiallarının tədarük edilməsi və daşınaraq ora yığılması, bünövrənin qoyulması, künc daşının bünövrə yerinə yerləşdirilməsi, möhrə vurulması, divar hörgüsü, boy tiri qaldırılması, tir başının və evin dam çardağının bağlanması, və s. inşaat prosesləri ilə bağlı adətlər xalq empirik tikinti təcrübəsinin zənginliyinə gözəl nümunə kimi təqdim olunaraq etnoqrafik xüsusiyyətləri araşdırılır, tikintidə el köməkliyi adətlərinin (iməcilik, hoy) səciyyəvi cəhətləri göstərilir.

I fəslin *"Təsərrüfat tikililəri"* adlanan paraqrafında bölgə əhalisinin istifadəsində olan təssəttüfat tikililərinin etnoqrafik araşdırılması öz əksini tapır. Burada əhalinin təsərrüfat məşğuliyyətindən asılı olaraq təsərrüfat tıkililəri - məişətlə bağlı tikililər, heyvandarlıqla bağlı tikililər və istehsal binaları olmaqla üç qrupda cəmlənmişdir ki, paraqrafda onların təyinatı, adları və inşaat qaydası ətraflı verilir. Əhalinin təsərrüfat tikililərinin bir qismini də istehsal binaları - dəyirman, dabbaqxana, kümxana, dəmirçixana və s. təşkil edirdi.

Dissertasiya işinin II fəsli *"Geyimlər və bəzəklər"* adlanır və 4 paraqrafa bölünür. Onun ilk paraqrafı *"Qadın geyimləri"*nə həsr olunmuşdur. Mikrobölgə Qarabağ, Gəncəbasar, qismən Şəki-Zaqatala bölgələrinin qovuşuğunda yerləşdiyindən, burada Gəncəbasarın zıvınısı, Şəki-Zaqatalanın ləbbadəsi, Qarabağın pullu çəpkəni, meydanyaxa arxalığı qadın geyimlərinin əsas elementləri olmuşdur. Burada özünəməxsus məhəlli spesifika ilə fərqlənən yeni çalarlı maddi mədəniyyət kompleksinin tərkib hissəsi olan qadın geyimləri – çitmə və ya girvənkə sarıq adlanan kiçik baş yaylığı, "yar-yardan incidi" adlı qadın ayaqqabısı və kəməri, "yarımca" adlanan içlik və s. də əhalinin istifadəsində olmuşdur. Ənənəvi qadın geyimləri özünün parça materialı, rəng əlvanlığı, biçim tərzi və tikiş

üslubunun mürəkkəbliyi, tip və formalarının müxtəlifliyi ilə diqqəti cəlb edirdi. Əhalinin milli qadın geyimləri "alt paltarı" və "üst paltarı" olmaqla iki variantda mövcud idi. Qadın alt paltarı alt köynəyi (müxtəlif bölgələrdə ona "can donu" "can köynəyi" və "ət köynəyi" də deyirdilər) və alt tumanından ibarət dəstlənirdi. Mikrobölgədə qadın üst geyim elementləri üst köynəyi, üst tumanı, çəpkən və ya nimtənə, arxalıq, lavada, zıbın və ya dejurka adlanan içlik, kürdü, döşlük, önlük və s.dən ibarət idi. Varlı ailələrin geyim dəstində küləcə, baharı, çərkəzi və s. tipli geyimə də rast gəlmək olardı. Paraqrafda bu geyimlərin geniş etnoqfafik təsviri və başlıca xüsusiyyətləri göstərilir.

Burada qadın baş geyimləri geymə (qoyma) və bağlama (örtmə) olmaqla iki qrupa bölünürdü. Birinci qrupa araqçın, çutqu və çalma (dingə), ikinci qrupa isə çitmə adlanan balaca yaylıq, qıyqac, kəlağayı, yun, çit və pambıqdan şal, duvaq, rübənd, çadra və s. aid idi. Paraqrafda onların da geniş etnoqrafik araşdırması aparılır.

Paraqrafda qadın ayaq geyimləri də təsnif olunur, onların xarakteristikası verilir, fasonuna, materialına, tikilmə tərzinə, ülgüsünə və daşıma (geymə) zövqünə görə bir-birindən seçildiyi vurğulanır. Mikrobölgədə corab, badış, qadın çarığı, başmaq, uzunboğaz çəkmə, çust, məst, nəleyin, gündəliyə geyilən sürütmə (çəkələk), XX əsrin əvvəllərindən isə qaloş, çivyak və s. qadın ayaq geyimləri mövcud olmuşdur.

II fəsilin 2-ci paraqrafı *"Kişi geyimləri"* adlanır. XIX-XX əsrin əvvəllərində mikrobölgə əhalisinin kişi geyimlərinin, bəzi məhəlli xüsusiyyətlərini çıxmaq şərtilə, Azərbaycanın digər bölgələri əhalisi və Qafqaz xalqlarının kişi geyimləri ilə oxşarlıq təşkil etdiyi qeyd olunur. Onlar alt (can) və üst köynəyi, dizlik, şalvar, arxalıq, içlik (zıbınça, canlıq, cılıtqa, pambıqlı), çuxa, kürk, yapıncı, eləcə də müxtəlif formalı və adlı baş və ayaq geyimlərindən ibarət idi. Kişi geyimləri alt paltarı və üst paltarı kimi dəstlənirdi. Üst geyimləri də öz növbəsində çiyinə geyilən və beldə bağlanan olmaqla iki variantda hazırlanırdı. Geyim materialları başlıca olaraq yun, pambıq, kətan və

ipək parçalardan, keçədən, dəridən ibarət olur, geyim hazırlığı ilə məşğul olan sənətkarlar tərəfindən hasilə gətirilərək bölgəyə yaxın olan Gəncə, Şəki, Bərdə, Ağdam, Ərəş, Ağdaş, sonralar isə Şuşa bazarlarından satınalma yolu ilə əldə edilirdi. Paraqrafda kişi geyimlərinin təsviri verilir, tipoloji təsnifatı aparılır, biçim üsulu, tikiş texnologiyası göstərilir, dini və sosial mənsubiyyətə görə, mövsümə uyğun geyimlərin fərqli xüsusiyyətləri tarıxi-etnoqrafık baxımdan araşdırılır. Ənənəvi kişi geyimlərini tamamlayan baş geyimləri dəridən, parçadan, keçədən və yundan hazırlanır, müxtəlif çeşidləri ilə seçilirdi. Xüsusilə kişi baş geyimləri milli ləyaqət, qeyrət, namus simvolu olduğundan, ona tələbat da böyük idi. Paraqrafda kişi baş geyimlərindən dəri papaqlar (çoban papağı, motal papaq və s. Onlar həm də "şiş papaq" və "şələ papaq" kimi məlum idi), Nuxa (Şəki) qəzasından satınalma yolu ilə əldə edilmiş daqqa (taqqa) papaq, ziyalılar və din adamlarının geydiyi araqçın, şəbkülah, varlıların geydiyi buxara papaq, cavanlar və uşaqların geydiyi "qarabağ fasonlu" yüngül, dairəvi papaq, eləcə də baş sarığı haqqında ətraflı məlumat verilir. Maldar-elatlar arasında papağın üstündən geyilən başlığa da təsadüf edilirdi.

Mikrobölgə əhalisinin kişi ayaq geyimləri corab, badış, çarıq, başmaq, məst, çust, uzunboğaz və yarımboğaz çəkmə, patava və dolaqdan ibarət idi. Corablar uzunboğaz və gödəkboğaz olmaqla, yun, pambıq və yarımipək saplardan toxunur, üzəri həndəsi və nəbati naxışlarla bəzədilirdi. Bu naxışlar xalça ornamentləri ilə oxşarlıq təşkil etdiyindən, onları "gəbə corab" adlandırırdılar. Uzunboğaz corab, adətən, çarıqla geyilirdi. Burada çarığın uzunburun, quşgözü, qarabağı, şirvanı, kalmanı, cütburun, quşburnu kimi növləri məlum idi. Qismən istifadə olunan başmaq (mərdanə başmaq) dabanı açıq, burun hissəsi isə yuxarı qatlanmış şəkildə olurdu. Kişi başmağı bəzəksiz hazırlanır, yaxın Gəncə, Şəki, Ağdam və Ağdaş bazarlarından əldə edilirdi. Kənd əhalisi başmaqdan çox, çusta üstünlük verirdi. Əsasən şəhərli ayaq geyimi hesab olunan məsti

bölgədə varlılar və şəhərlə sıx əlaqəsi olan tacir-tüccar əhli, din adamları, ziyalılar geyinirdi.

II fəlin 3-cü paraqrafında *"Uşaq geyimləri"*dən bəhs edilir. Burada qeyd olunur ki, XIX-XX əsrin əvvəllərində uşaq geyimləri bütünlüklə böyüklərin (kişi və qadınların) milli libaslarının eyni biçimdə, lakin kiçik ölçüdə təkrarından ibarət idi. Bununla belə, uşaqların çağa vaxtdan müəyyən yaş həddinə çatana qədər (6 - 7 yaşa qədər) geyimlərində fərqli cəhətlər müşahidə olunurdu. Mikrobölgədə yeni doğulan uşağı bələkdə saxlayırdılar. Yeni doğulmuşlara "qırx köynəyi" və "qırx papağı" deyilən əyinlik geydirirdilər. Uşaq 6-7 yaşına çatanda onlara "bağlı", "aşırmalı" və "finka" adlanan şalvar geydirirdilər. Digər uşaq libaslarında diqqət çəkən elə bir fərqli element yox idi. Qız uşaqlarının geyimlərinə gəldikdə isə, bu geyimlər *"rəng əlvanlığı, estetik gözəlliyi, biçimin xüsusi əndazəsi, narın tikiş texnologiyası, asma və tikmə bəzəklərin çoxluğu ilə səciyyələnirdi"*[24] və böyüklərin geyimlərini kiçik ölçüdə təkrar edirdi.

II fəsilin son paraqrafı *"Bəzəklər"* adlanır. Bölgədə bəzək məmulatlarından istifadə edilməsinin qədim tarixi olmuşdur. Mingəçevir arxeoloji qazıntılarından tunc, qızıl, sürmə, dəmir, mineral, pasta, sümük və balıqqulağından düzəldilmiş çoxlu bəzək nümunələri əldə edilərək er. əv. II-I minilliklərə aid edilmişdir. Mikrobölgə əhalisinin kişi geyimlərini tamamlayan bəzəkllər (toqqaqayış, kəmər, xəncər və qını, saat və saat qabı, vəznə-patrondaş, saat zənciri, müxtəlif təyinatlı üzüklər və s.) azlıq təşkil etsə də, qadın geyimlərinin bəzəkləri çoxçeşidli olmaqla yanaşı, müxtəlif istehsal texnologiyaları ilə hazırlanaraq qadın geyim dəstinə xüsusi gözəllik gətirmişdir. XIX-XX əsrin əvvəllərində bölgə qadınlarının bəzək-zinət əşyaları Gəncənin, Şəkinin, Ağdamın, Ərəşin, Şuşanın bazarlarından ya satınalma yolu ilə əldə edilmiş, ya

---

[24]Vəliyev F.İ. Azərbaycanın uşaq geyimləri və bəzəkləri, onlarla bağlı bəzi adətlər, inamlar, mərasimlər (XIX-XX yüzilliyin əvvəli). / F.İ.Vəliyev.-Tarix və onun problemləri, № 3. -Bakı:"ADİLOĞLU" MMC, -2005, s.216-217.

da sıfarişlə (buyurtma) ünlü sənətkarlara hazırlatdırılmışdır. Onların zinət əşyaları gəzdirilmə tərzinə görə baş, qulaq, boyun, sinə, bel, qol və barmaq bəzəkləri qrupuna bölünmüşdür. Lakin qadın bəzəkləri təkcə bunlarla məhdudlaşmamış, qadın üst geyimlərinin boyunluğuna, yaxalığına, qollarının ağzına, ətəklərinə, hətta bəzən çiyinlərinə də müxtəlif üsullarla bəzəklər vurulmuş, asma bəzəklər bənd edilmişdir. Bölgə üçün xarakterik olan "yar-yardan incidi" adlanan qadın kəməri xüsusilə toy günündə qadın belinə bağlanan ən qiymətli kəmər hesab olunmuşdur. Paraqrafda bu bəzəklər ətraflı araşdırılmışdır.

Dissertasiyanın III fəsli *"Yeməklər və içkilər"*adlanır. Fəslin *"Yeməklər"* adlanan 1-ci paraqrafında yeməklər haqqında ümumi məlumat verilir, maddi mədəniyyətin digər sahələrindən fərqli olaraq, yeməklər və içkilərin daha mühafizəkar sahə olub, tarixi adət-ənənələri tam şəkildə qoruyub saxladığı, bu sahədə xalqın yaradıcı əməyinin, təxəyyül və fəhm imkanlarının qabarıq şəkildə özünü büruzə verdiyi vurğulanır, mikrobölgə əhalisinin yeməklərinin təsnifatı aparılır. Mikrobölgədə yüksək kalorili yeməklər iki tərkibdə qruplaşdırılır: 1. Bitki mənşəli yeməklər 2. Ət və süd mənşəli yeməklər.

III fəslin 2-ci paraqrafı *"Bitki mənşəli yeməklər"*ə həsr olunmuşdur. Bu paraqrafda mikrobölgənin təsərrüfat məişətinin qısa xarakteristikası verilir, aparıcı təsərrüfat sahələrindən əkinçilik və maldarlığın mövcud durumuna diqqət çəkilir. Burada bitki mənşəli yeməklərdən gündəlik qida öynəsində başlıca yer tutan çörəyin daha çox təndir çörəyi, yuxa, lavaş, fətir, yannama, oma, xamralı, südlü çörək, qoz çörəyi və kətə çörəyi növlərinin bişirilməsi aşkar edilmiş, çörəyin əsasən buğda və arpa unundan hazırlandığı, qarğıdalı ununu buğda və ya darı ununa qatmaqla "cad" adlanan balaca, girdə çörəklər bişirildiyi məlum olmuşdur. Çörəkbişirmə vasitələri sac və təndir idi. Bununla belə, ocaq yerində üzərinə qor (isti köz) tökməklə kömbə də bişirilmişdir. Yalnız tədqiq etdiyimiz bölgə üçün xarakterik olan şirniyyat növlərindən biri "oma" olmuşdur.

Dissertasiya işində omanın hazırlanma texnologiyası ətraflı şərh edilmiş, bayram və mərasim süfrələrində xüsusi yerinin olduğu qeyd edilmişdir. Omadan başqa yağlı çörək (qatdama, bayram çörəyi (şorçörəyi), fəsəli və s. də bayramlarda süfrələr bəzəyi olurdu.

Bitki mənşəli yeməklər arasında çoxçeşidli xəmir və düyü xörəklərinin xüsusi yeri vardı. Bitki mənşəli yeməklər içərisində bölgə üçün xarakterik olan "oma" adlanan şirniyyat növü, "yapma xəngəl", "şoraqqalı xəngəl", "basma və ya eşmə xəngəl", "cıradal", "qaraltılı aş" (qavlamalı), "qartdama aş" (ilan balığı ilə hazırlanır), "çoban aşı" və s. məhəlli-lokal səciyyə daşıyaraq ilk dəfə olaraq tədqiqata cəlb olunmuş, bölgə əhalisinin Azərbaycan yeməkləri siyahısına verdiyi töhfə kimi dəyərləndirilmişdir. Paraqrafda mikrobölgənin meyvə-tərəvəz və bostan məhsulları da geniş tədqiqata cəlb olunmuşdur. Quru lobyadan hazırlanan "lobya turşusu" və ya "lobya şoputu" da bölgənin məhəlli-lokal səciyyəli yeməyi sayılır.

III fəslin 3-cü paraqrafında *"Ət və süd mənşəli yeməkləri"*dən bəhs edilir. Tərkibində insan orqanizmi üçün faydası olan zülallar, yağlar, mineral maddələr, vitaminlər və amin turşuları çox olan ət yüksək kaloriyə malik olduğundan, yemək öynəsinin əsasını təşkil edirdi. Bu bölgənin yerli əhalisi qoyun, keçi, mal əti, quş əti və balıq ətindən yeri gəldikcə istifadə edirdi. Tədqiqatla əhalinin əti tikələrə bölərək və qiyməleyib bişirdiyi, bu ət xörəklərinin çoxlu çeşidinin olduğu aşkar olunmuşdur.

XIX-XX əsrin əvvəllərində əhali qoyun, mal əti ilə yanaşı, toyuq, hind toyuğu, qaz ətindən və yumurtasından da istifadə edirdi. Əhalinin yemək öynəsində ev quşları ilə yanaşı, çöl ördəyi, çöltoyuğu, çöl qazı, qızılqaz, kəklik, bildirçin, qırqovul, turac, dovdaq, bəzgək, qaşqaldaq və digər ov quşlarının ətindən hazırlanan yeməklər də müəyyən yer tuturdu. Mikrobölgə əhalisinin ət yeməklərinin bir qismini də balıq yeməkləri təşkil edirdi. Mingəçevir və Yevlax ərazisində balıqçılıq xüsusilə yayılmışdı. Kür çayından uzunburun, nərə, ağbalıq, ilan balığı və s. ovlanaraq çeşidli balıq

yeməkləri hazırlanırdı. Süddən hazırlanan məhsullar digər bölgələrdəki ağartı yeməkləri ilə oxşar idi. Qatıq yemək kimi həm gündəlik süfrələrə verilir, ondan doğrama hazırlanır, artığı yağ hasilinə sərf olunurdu. Bölgə əhalisi arasında yenicə doğmuş heyvanın ilk bir-iki günlük südü "ağız südü" adlanırdı. Bu süddən kas, köppəcə, bulama, maxara və c. kimi müxtəlif yeməklər hazırlayırdılar. Ehtiyat ərzaq tədarükü məhsulları içərisində süd və süddən hazırlanan məhsullar pendir, yağ, motal, qurud və s.) mühüm yer tuturdu.

III fəslin 4-cü paraqrafı *"Yemək öynəsi və yeməklə bağlı etiket qaydaları"* adlanır. Qəbul olunmuş ümumi qaydaya görə, yemək gündə 3 dəfə (səhər, nahar və şam yeməyi) yeyilirdi. Lakin bu şərti xarakter daşıyırdı. Çünki mövsüm dəyişmələri, iqlim, təsərrüfat məşğuliyyəti, xüsusilə də Orucluq mərasimi yemək öynəsində ciddi dəyişikliklərə səbəb olurdu. Orucluq günlərində, gündüzün yemək rejimi iftar, yastılıq və obaşdanlıq (imsaq) süfrələri ilə əvəzlənirdi. Fəsilin bu paraqrafında yemək öynələrinin süfrəsi, və mövcud etiket qaydaları ətraflı tədqiq olunur.

III fəslin 5-ci paraqrafı olan *"İçkilər"* bölgə süfrələrini rövnəqləndirən ənənəvi içkilərin öyrənilməsinə həsr olunmuşdur. Mikrobölgə əhalisinin ən geniş yayılmış ənənəvi soyuq və isti içkiləri, eləcə də, sərinləşdirici, müalicəvi-pəhriz və şərbət-şirə içkiləri çay, su, ayran, qatıq (atlama), körəməz, dələmə və həlim olmuşdur. Bölgədə az-çox dərəcədə meyvə şərbətləri və şirələrindən də içki kimi istifadə edilmişdir. Bunlardan gülab, şərbət, qəndab, zoğal, nar, heyva şirələri, abqora və s. yağlı və ətli yeməklərin yanında süfrəyə çıxarılmışdır.

III fəslin son paraqrafında *"Qablar, mətbəx və məişət avadanlıqları"*ndan bəhs olunur. Tədqiq etdiyimiz dövrdə əhalinin istifadə etdiyi məişət qablarının misdən, ağacdan (çubuqdan), gildən, dəridən, toxuma və hörmə məmulatlarından və qismən də dəmirdən hazırlandığı müəyyən olunmuşdur ki, onlar haqqında dissertasiyada ətraflı bəhs edilmişdir. Bu qabların içərisində mis qablar üstünlük

təşkil etmişdir. Əhali mis qabları əsasən yüklü atlarla kəndlərə gələn lahıclılardan (səhragərdlərdən), eləcə də yaxın Gəncə və Şəki bazarlarından alırdılar. Ağacdan hazırlanmış və çubuqhörmə qablar adətən, xörək-çörək məmulatlarının hazırlanmasında, süd-ağartı məhsullarının emalında, taxıl məhsullarının tadarükündə və s. istifadə olunurdu. Bölmədə onların geniş çeşidi verilmişdir. Gildən hazırlanan dulus qabları oturaq əhalinin məişətində daha çox istifadə olunurdu. Onları da səhragərdlərdən və yaxın bazarlardan (Şəki, Gəncə, Ağdam, Ağdaş) əldə edirdilər. Bu qabların sırasında gil (saxsı) nehrə, goduş, küpə (bərni), pendir dopusu, su bardağı, piti qabı, eləcə də xeyrə, səhəng, təsərrüfat küpü və s. var idi. Yerli dəmirçixanalarda əhalinin məişət ehtiyaclarını ödəmək üçün dəmirçilik məhsulları – daqqa, sac, şiş, sacayağı, maşa, ərsin, manqal, qənddoğrayan, qiyməkeş, bıçaq və s. də hazırlanırdı. Qalın və qaba parçalardan, cecimdən, xalça materialından hazırlanan çuval, xaşa, məfrəş, heybə, xurcun, duz torbası, qaşıqlıq və s. də bölgə əhalisinin gündəlik məişətində rast gəlinən zəruri ev avadanlıqları idi. Əhali aşılanmış və aşılanmamış gön-dəri materiallarından hazırlanan qablardan - motal, eymə, tuluq, dağarcıq, tejən, cılğı, tuluq nəhrə, qarın və s. geniş şəkildə istifadə etməyi bacarırdı.

Dissertasiyanın *“Xalq nəqliyyatı vasitələri”* adlı IV fəsli 6 paraqrafdan ibarətdir. Nəqliyyat vasitələrinin ərazidə tarixən iki istiqamətdə: quru və su nəqliyyatı olaraq mövcudluğu aşkarlanmışdır. Burada əhalinin istifadəsində olan quru nəqliyyatı vasitələri üç qrupa ayrılmışdır: 1. Bəsit yükdaşıma üsulları 2. Minik-yük nəqliyyatı 3. Qoşqu nəqliyyatı.

*“Bəsit yükdaşıma üsulları”* adlanan I paraqrafdan qədim nəqliyyat olan bəsit yükdaşıma dedikdə, ilk növbədə, insanın nəzərdə tutulduğu vurğulanır. Qədim dövrlərdən bəri insanlar öz yüklərini əldə, çiyində, qoltuqda, qucaqda, beldə, başda daşımışlar. Heybə, boyun torbası, xurcun, səbət, parça zənbil, çuval, şal bağlaması, şələ, güyüm, səhəng, qurşaq, toqqa-qayış və s., sonralar xərək və əl

sürütməsi də bəsit yükdaşıma vasitələri olmuşdur. Paraqrafda onların təsviri və işçi xüsusiyyətləri əks olunur.

Fəslin *"Minik-yük nəqliyyatı"* paraqrafında əsas nəqliyyat vasitəsi kimi minik və yük heyvanları göstərilir. Minik-yük nəqliyyatının ən rəvanı at idi. Mingəçevirdə tapılmış 20 kurqandan 5-də aparılan arxeoloji qazıntılardan at skletlərinin və ata aid əşləhələrin tapılması burada atdan istifadənin qədim tarixi olduğunu sübut edir[25]. Məşhur "Qarabağ atları"nı bölgənin bəyləri minirdilər. Başqa at cinsləri ilə cütləşdirilmiş Qarabağ cinsli atları minik və yük üçün saxlanırdı. Minik-yük heyvanı dəvədən qismən istifadə olunurdu. Ulaqdan əhalinin kasıb təbəqəsi istifadə edirdi. Onunla odun, çırpı, su, dərz, ot və s. kimi ağır olmayan yüklər daşınırdı. Qatır, zebu, öküz və kəldən minik vasitəsi kimi istifadəyə bölgədə rast gəlinməmişdir. Yük və minik vasitələrindən istifadə zamanı yəhər, palan-navar dəstlərindən istifadə edilirdi.

IV fəslin 3-cü paraqrafı *"Qoşqu nəqliyyatı"* adlanır. Qoşqu nəqliyyatının ən bəsit növü qoşqu heyvanı vasitəsilə sürütmə idi. Əhali Kürboyu tuqay və Samux meşəsindən tikinti materiallarını boyunduruq vasitəsilə qoşqu heyanına sürütmə qoşaraq gətirirdi. XIX-XX əsrin əvvəllərində mikrobölgədə ənənəvi qoşqu nəqliyyatı vasitəsi kimi iki və dördtəkərli kəl, öküz və uzunqulaq arabalarından, bundan başqa, Malakan arabalarından - "Odinoçka" adlanan araba (təkatlı araba), "Drojka" adlanan tək və qoşa atlı dördtəkər arabalarından istifadə olunmuşdur. Fəslin bu paraqrafında adı çəkilən arabaların quruluşu, işçi hissələri, boyunduruq və onun növləri, arababağlama, təkər növləri haqqında ətraflı araşdırma aparılır və qoşqu nəqliyyatının xalq məişətində yeri və rolu müəyyənləşdirilir. Burada yaylı nəqliyyat vasitəsi kimi qazalaq və faytonlardan da qismən istifadə olunduğu qeyd olunur.

---

[25] Quliyev F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni./ Quliyev F.- Bakı, - Elm, - 2008. - s. 64-68.

IV fəslin *“Su nəqliyyatı vasitələri”* adlı paraqrafında mikrobölgənin iqtisadi həyatında əsasən Kür çayının rolu vurğulanır, əhalinin kötuk, sal, kolaz (qayıq), bərə kimi ənənəvi su nəqliyyatı vasitələrindən istifadə etdiyi müəyyən olunur. Fəslin bu hissəsində adı çəkilən su nəqliyyatı vasitələrinin etnoqrafik xüsusiyyətləri araşdırılır, kolaz (qayıq) və bərə kimi təkmilləşdirilmiş su nəqliyyatı vasitələrinin quruluşu, növləri, hazırlanması, işlənmə qaydası, təyinatı və s. haqqında ətraflı elmi araşdırmalar aparılır, təsərrüfat və məişət əhəmiyyəti ortaya çıxarılır.

XIX əsrin 40-50-ci illərində çar Rusiyası Kür çayında gəmiçiliyi inkişaf etdirmək üçün bir çox tədbirlər planı işləyib hazırlamışdı. Yazılı mənbələri cəlb edərək bu bölmədə Kür çayında gəmiçiliyi inkişaf etdirmək təbdirləri də ətraflı araşdırılmışdır. Qeydə alınan faktlar XIX-XX əsrin əvvəllərində burada su nəqliyyatının kirjim, sandal, barj, hətta buxar gəmisi və s. vasitələrinin nə qədər vacib olduğunu təsdiqləyir.

IV fəslin *“Yollar, körpülər, keçidlər”*adlı paraqrafında qeyd olunur ki, Mingəçevir və ətraf bölgələr hələ qədim zamanlardan Azərbaycanın yol qovşağının şah damarı hesab olunan su və quru yollarının yaranması və inkişafında həlledici rola malik olmuş, Boyük İpək Yolu üzərində yerləşməklə yolayırıcı məntəqə funksiyası daşımışdır. XIX-XX əsrin əvvəllərində Kürdə Mingəçevir keçidinə və Samuxun Qarasaqqal kəndinə kimi çay gəmiçiliyinin ənənəvi nəqliyyat vasitələri – qayıq, kirjim, sandal, barj, hətta buxar gəmiləri işləmişdir. Paraqrafda burada mövcud olan beynəlxalq və yerli əhəmiyyətli yolların (karvan-ticarət, poçt, daxili, köç) istiqamətləri, bölgə üçün əhəmiyyəti, əhalinin məişət, təsərrüfat-iqtisadi və ticari həyatında rolu, ərazinin körpü və keçidləri ətraflı araşdırılır. Mikrobölgəni iri şəhərlər və qəza mərkəzləri ilə, kəndləri isə bir-birilə əlaqələndirən daxili yollar el arasında “qara yol”, “araba yolu”, “el yolu”, “xəbərçi yolu”, “bazar yolu” və s. adlanırdı. 1883-cü ildə Bakı-Tiflis dəmiryolunun işə düşməsi ilə mikrobölgədə Dəliməmmədli, Yevlax, Mingəçevir, Goran, qismən Ləki dəmiryolu

stansiyaları bölgənin iqtisadi-təsərrüfat və ticarət həyatında həlledici rol oynamağa başlayır.

IV fəslin *"Rabitə vasitələri"* paraqrafında isə tədqiqat dövrünə qədər mikrobölgədə rabitə işinin ənənəvi üsullarla həyata keçirildiyindən söhbət açılır. Burada qədimdən insanlar lazımi məlumatları ünvanına çatdırmaq məqsədilə təbil və ya baraban (dəf), qışqırıq, fışqırıq, zəng, səslərindən, işıq, tonqal, məşəl, və s. vasitələrdən, müxtəlif bayraq və əl hərəkətlərindən, habelə öyrədilmiş göyərçinlərdən istifadə etmişlər. XIX əsrin 30-cu illərində Yevlaxda poçt idarəsi fəaliyyətə başlamışdır. Bakı-Tiflis dəmiryolunun keçdiyi Yevlax, Mingəçevir, Goran, Dəliməmmədli kimi stansiyalarda poçt qəbulu məntəqələri yaradılmışdır. Rabitənin daha intensiv və yazılı (sənədli) növü olan teleqraf və telefon rabitəsi tədqiq etdiyimiz mikrobölgədə xeyli sonralar – XIX əsrin sonlarından etibarən yayılmağa başlamışdır. 1917-ci ildə Azərbaycandakı 93 poçt-teleqraf müəssələrindən biri Yevlaxda, biri isə Ərəşdə olmuşdur. Rabitənin bu intensiv növləri, başlıca olaraq çar məmurlarına, əcnəbilərə, qismən yerli ağalara xitmət etmiş, əhali üçün əlçatmaz olmuşdur.

İkinci Dünya müharibəsindən sonra mikrobölgənin əhalisi rabitənin telefon, poçt-teleqraf, radio, televiziya kimi geniş şəbəkəsindən, hazırda isə bunlarla yanaşı, internet şəbəkəsi və kütləvi informasiya vasitələrindən geniş istifadə edir.

Azərbaycanın Gəncəbasar, Qarabağ və qismən Şəki-Zaqatala bölgələri ilə sərhədlənən Mingəçevir və ətraf bölgələri əhalisinin maddi mədəniyyətinə dair topladığımız etnoqrafik-çöl materialları, eləcə də mövcud ədəbiyyat göstəricilərinin tarixi-müqayisəli təhlili aşağıdakı ***nəticələrin*** əldə olunmasını şərtləndirmişdir:

- Mingəçevir və ətraf bölgələrdə Mingəçevir hidroqovşağının tikintisi ilə əlaqədar olaraq XX əsrin 40-50-ci illərində aparılan güclü arxeoloji tədqiqat işləri zamanı çoxsaylı və çoxçeşidli maddi mədəniyyət nümunələri əldə olundu və bunlar ərazinin qədim tarixi olduğunu təsdiqlədi. Sonralar da Yevlax, Xaldan,

Goranboy ərazilərində aparılan arxeoloji tədqiqat işləri bu yerlərin məskunlaşma tarixinin qədimliyini bir daha sübut etdi;

- Bölgə əhalisinin uzun sürən tarixi inkişaf prosesinin nəticəsi olan maddi mədəniyyətinin formalaşmasına təbii-coğrafi şərait, ərazinin relyef-landşaft zonallığı, əhalinin təsərrüfat fəaliyyətinin yönümü, sosial-iqtisadi inkişafın tədqiq olunan dövrə uyğun real səviyyəsi ciddi təsir edərək onun tam kompleksini yaratdı;
- Mikrobölgənin ayrı-ayrı maddi mədəniyyət sahələrinin (xalq yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, yeməklər və içkilər, nəqliyyat vasitələri və yollar) yaranıb biçimlənməsində bir sıra məhəlli xüsusiyyətlər özünü büruzə versə də, bütövlükdə o tipoloji və terminoloji nöqteyi-nəzərdən Ümumazərbaycan maddi mədəniyyət kompleksinin tərkib hissəsi kimi səciyyələnir və bəzən Ümumqafqaz paralelləri də izlənilir. Belə bir ümumiliyin əsasında Azərbaycanla Qafqaz xalqları arasında tarixən yaranmış mədəni-iqtisadi əlaqələr və qarşılıqlı təmas durduğu aydın görünür.
- Tarix boyu Mingəçevir və ətraf bölgələrə daxili əhali miqrasiyası nəticəsində Borçalı, Qazax, Gəncəbasar, Qarabağ, Şəki bölgələrindən eyni etnik mənşəyə malik olan əhali qrupları köçüb gəlmişdir ki, bunların da əksəriyyəti türkdilli söylar olmuşdur. Bölgənin yerli türkdilli soyları ilə az müddət ərzində qaynayıb-qarışan bu soylar və onlara məxsus mədəni elementlər burada maddi mədəniyyətin yerli çalarına bir rəngarənglik qataraq onun spesifik məhəlli lokalizasiyasını şərtləndirdi;
- Aparılan tədqiqatla Azərbaycan etnoqrafiyasının lüğət fonduna xeyli yeni terminologiya (“kəlləbaşı” plan quruluşlu ev, “çitmə” və ya “girvənkə sarıq” adlanan kiçik baş yaylığı, “yar-yardan incidi” adlı qadın ayaqqabısı və kəməri, “yarımca” adlanan içlik, “oma” adlanan şirniyyat növü, “yapma xəngəl”, “şoraqqalı xəngəl”, “basma və ya eşmə xəngəl”, “bılığ”, “cıradal”, “qaraltılı aş” (qavlamalı), “qartdama aş” (ilan balığı ilə hazırlanır), “çoban aşı”, ağız südündən bişirilən “kas”və s.) yemək növləri daxil

edildi ki, bunlar mikrobölgənin məhəlli-lokal spesifikasını təsdiqlədi;
- Mikrobölgənin maddi mədəniyyətinə sosial təbəqələşmə və sinfi fərqlərin həlledici təsir göstərdiyi konkret fatoloji materiallar əsasında təsdiqləndi və nəticə olaraq varlı sosial təbəqənin maddi mədəniyyəti rəngarəng çalarlı etmə qabiliyyəti aşkar edildi.

***Təklifim:***

1. Azərbaycanın, eləcə də tədqiq etdiyimiz mikrobölgənin ənənəvi milli geyimlərini gələcəkdə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyasına salmaq, kəlağayı simvolizmi kimi bu geyimləri də dünya çapında tanıdıb məşhurlaşdırmaq milli-mədəni və maddi dəyərlərimizə ən böyük töhfə olardı.
2. Müstəqil Azərbaycanımızda hazırda "Milli geyim günü"nün keçirilməsi təklif olunur. Onu "Milli geyim həftəsi, ongünlüyü və ya aylığı" kimi keçirmək daha məqsədyönlü olardı.
3. Ulularımızın hazırladığı milli yeməklərimizi, mis, ağac, dəri və gildən olan mətbəx-məişət qablarının faydalı gigiyenik saflığını nəzərə alıb, onların çoxunu məişətə qaytarmaq, ənənəvi maddi mədəniyyət kompleksinə gələcək nəsillərin sayğısını aşılamaq da faydalı olardı.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Mingəçevir və ətraf bölgələri əhalisinin yaşayış evləri və ev tikintisi ilə bağlı xalq adətləri (XIX-XX əsrin əvvəlləri) // - Киев: Гілея: науковий вісник: Збірник наукових праць, -2014, вып. 85 (№ 6), - s. 115-118.

2. XIX-XX əsrin əvvəllərindən Şimali Azərbaycanın Mingəçevir və ətraf bölgərinin maddi mədəniyyəti. "Yeməklər və içkilər" // - Bakı: Arxeologiya və Etnoqrafiya jurnalı,- 2014, - s. 209-216.

3. Mingəçevir və ətraf bölgələrin maddi mədəniyyətinin etnoqrafik cəhətdən öyrənilməsi tarixindən // - Bakı: Avrasiya Universiteti "Sivilizasiya" Elmi-nəzəri jurnalı, - 3/2014, - s. 125-134.

4. Traditional women ornaments of the population of Mingachevir and around (surrounding) regions at the beginning of the century // Proceedings of young scientists, - 2016, №14, - p. 238-242.

5. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın Mingəçevir və ətraf bölgələrinin ənənəvi kişi geyimləri // Bakı: - "Geo Strategiya", 2017. № 01(37) yanvar-fevral, - s. 69-73.

6. XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələri əhalisinin yaşayış məskənləri // - Bakı: "Geo Strategiya", - 2018. №04(46), - s. 73-76.

7. Traditional national women`s clothing of Mingachevir and its surrounding aras in the early XIX-XX century // - Москва:Вопросы Истории, -2020. № 2, - p. 158-166.

8. XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri əhalisinin bəzi qadın geyimləri və bəzəkləri haqqında // - "Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları". -Bakı: Dövlət İqtisad Universiteti, - 7-8 aprel 2015, - s. 362-365.

9. XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələrin yaşayış məskənlərinin etnoqrafik cəhətdən öyrənilməsi // "Davamlı inkişafın milli modeli və strategiyası" Respublika elmi-praktik konfransın materialları. - Mingəçevir: - Mingəçevir Dövlət Universiteti, - 27-28.noyabr, 2015, - s. 324-326.

10. XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələrin maddi mədəniyyəti // Mingəçevir Dövlət Universiteti və Mingəçevir şəhər Təhsil Şöbəsi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri" mövzusunda Respublika elmi konfransın materialları.- Mingəçevir: - 22-23 aprel 2016,- s. 85-88.

11. XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələrin əhalisinin xalq nəqliyyatı vasitələri // Mingəçevir Dövlət Universitetində keçirilən "Qloballaşma və regional inteqrasiya"

respublika elmi konfransın materialları. - Mingəçevir: -23-24 dekabr 2016, - s. 432-434.

12.XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələrdə poçt yolları. // - Bakı: “Azərbaycanda Arxeoloji və etnoqrafik araşdırmalar”. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu elmi sessiyanın materialları, - 2018. 07 fevral, - s. 157-159.

13. XIX-XX əsrin əvvələrində Mingəçevir və ətraf bölgələrin yolları, körpü və keçidləri // - Bakı: Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş “2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları” mövzusunda Elmi sessiyanın materialları, - 2019. 12 iyul, - s. 74-78 (həmmüəllif).

14. Некоторые правила этикета, связанные с культурой стола в Мингячевире и его окрестностях в начале XIX-XX веков // Proceedings of the International Scientific Conference Thory and Practice of Modern Science and Education.-Dnipro: Ukraine - 2019, - November 29-30, part I, - p. 206-209.

Dissertasiyanın müdafiəsi 10 noyabr 2023-cü il tarixində saat 13[00]-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 06 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  04.10.2023
Kağızın formatı: A5
Həcm: 44916
Tiraj: 100